Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Avqust 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## AZƏRBAYCAN BƏRPA OLUNAN ENERJİ SAHƏSİNDƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ İLƏ SIX ƏMƏKDAŞLIQDA MARAQLIDIR.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış “Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu” yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 9 avqust 2024-cü il tarixində Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündəki çıxışından**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2023-cü ilin yanvar-iyul ayları ərzində 20,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-iyul aylarında qeyri-neft sektoru üzrə ixrac 1.9 milyard ABŞ dolları təşkil etmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın avqust sayına əsasən, 2024-cü ilin yanvar-iyul ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac isə **1,9 milyard** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-iyul ayları ərzində yeyinti məhsulları üzrə ixrac **3,1%** artaraq **474,2 milyon** ABŞ dollarına bərabər olub.

2024-cü ilin yanvar-iyul ərzində pambıq ixracı **58,9%**, bitki və heyvan mənşəli piylər və yağların ixracı **58,1%**, şəkər məhsulları **29,4%**, kimya sənayesi məhsulları **13,4%** artıb.

2024-cü ilin yanvar-iyul ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **10,7%** artaraq **598 milyon** ABŞ dolları təşkil edib. Qeyd edilən dövr ərzində aqrar məhsullar üzrə **2,5%** artaraq **431,3 milyon** ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə isə **39,7%** artaraq **166,7 milyon** ABŞ dolları təşkil

etmişdir.

2024-cü ilin yanvar-iyul ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor) (**139.5 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (**125,6 milyon** ABŞ dolları) ikinci, qızıl (**74.5 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-iyul ərzində Rusiya Federasiyasına **641,1 milyon** ABŞ dolları, Türkiyəyə **353,6 milyon** ABŞ dolları, Gürcüstana **135,5 milyon** ABŞ dolları, ABŞ-a **103 milyon** ABŞ dolları, İsveçrəyə isə **78,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Cari ilin iyul ayının qeyri-neft ixracı **19,5%** artaraq **278,6 milyon** ABŞ dolları olub. Yeyinti məhsulları üzrə ixrac **81,7 milyon** ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 196,9 milyon ABŞ dolları təşkil edib.

2024-cü ilin iyul ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**99,4 milyon** ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**46.7 milyon** ABŞ dolları) ikinci və Gürcüstan (**21.7 milyon** ABŞ dolları) üçüncü olub.

2024-cü ilin iyul ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında şaftalı (**29,8 milyon** ABŞ dolları) birinci, qızıl (**16,6 milyon** ABŞ dolları) ikinci və polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (**15,2 milyon** ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust

2023 2024

-6,6%




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN İYUL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024
İXRAC
İCMALI
avqust

2023 2024

+19,5%

233,7 mln

278,6 mln



Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN İYUL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI
(2023-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2024 İXRAC İCMALI avqust

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**598 mln $**

2022/2023
**+10,7%**



2022/2023
**+2,5%**

**431,3 mln $**

**166,7 mln $**

2022/2023
**+39,7%**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust



# 2024-CÜ İLİN İYUL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust



# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Tomat (pomidor) | 139,5 | 124,2 |
| Pambıq mahlıcı | 125,6 | 79,4 |
| Qızıl | 74,5 | 72,1 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 62,7 | 24,3 |
| Karbamid | 62,1 | 35,7 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 56,6 | 56,2 |
| Metanol (metil spirti) | 54,6 | 52,9 |
| Meşə fındığı | 53,5 | 62,5 |
| Elektrik enerjisi | 51,8 | 314,5 |

# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2023-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust

■ 2024 ■ 2023

| Məhsul | 2024 | 2023 |
|---|---|---|
| Polimerləşmədə ilkin formalı maddələr | 51,7 | 52,4 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 46,8 | 54,3 |
| Şaftalı | 38,3 | 27,6 |
| Digər yağlar və məhsullar | 38 | 34 |
| PP İlkin formalı polipropilen | 34,9 | 71,5 |
| Kərə yağı | 32,8 | 5,1 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 sm3-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 31,5 | 38 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 27,9 | 46,1 |
| Xurma | 27,8 | 14,8 |

# 2024-CÜ İLİN İYUL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust

| | 2024 | 2023 |
|---|---|---|
| Şaftalı | 29,8 | 23 |
| Qızıl | 16,6 | 11,5 |
| Polimerləşmədə ilkin formalı maddələr | 15,2 | 8,5 |
| İlkin formalı polipropilen (PP) | 9,5 | 6,7 |
| Karbamid | 9,5 | 3,7 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 9 | 3,7 |
| Pambıq mahlıcı | 8,8 | 10,7 |
| Metanol (metil spirti) | 8,7 | 6,1 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 8,5 | 12,5 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



2024-cü ilin yanvar-iyul ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: “Silk Vey Vest Aviaşirkəti” MMC, “Asg Business Aviation” MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, Süleymanova Göhər Süleyman qızı, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "My Vegetables" MMC, "TABATTERA” QSC, "Atena" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “Socar Polymer” MMC, “Azəralüminium” MMC, AzerGold”, QSC “Azərenerji” ATSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "SURAXANI MAŞINQAYIRMA ZAVODU" ASC, “Azəripək” MMC”.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-İYUL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust




* “SOCAR Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** “AzərGold” QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2024-cü ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) **10,9 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-iyul aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 48 ölkəsinə **10,9 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78%-ni təşkil edib. 2024-cü ilin iyul ayında isə “Azərkosmos” dünyanın 42 ölkəsinə **1,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-iyul ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **3.5 milyon** ABŞ dolları ilə Birləşmiş Krallıq, **2,2 milyon** ABŞ dolları ilə Lüksemburq, **629.6 min** ABŞ dolları ilə BƏƏ, **395 min** ABŞ dolları ilə Almaniya və **384,6 min** ABŞ dolları ilə Türkiyə qərarlaşıb.

# 2023-CÜ İLİN YANVAR-İYUL AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 10,9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 3,5 mln $ | Birləşmiş Krallıq |
| 2,2 mln $ | Lüksemburq |
| 629,6 min $ | BƏƏ |
| 395 min $ | Almaniya |
| 384,6 min $ | Türkiyə |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



**2024-cü ilin yanvar-iyul ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 1,5 milyard manatlıq əməliyyat aparılıb.**

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2024-cü ilin yanvar-iyul aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 1,5 milyard manat, yalnız iyul ayında isə 267 milyon manat dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI avqust

| | 2022 | 2023 | 2023 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | 136,6 | 126 | 210 |
| May | 184,1 | 173,4 | 225,8 |
| İyun | 203,6 | 148,6 | 221,7 |
| İyul | 214 | 218,8 | 267 |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **1,3 mlrd** | **1,2 mlrd** | **1,5 mlrd** |

* Mərkəzi Bankın təqdim etdiyi statistikası əsasında

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin avqust ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 35,2 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2024-cü ilin avqust ayı ərzində **180 müraciət** daxil olub. Müvafiq dövr ərzində **374 ədəd** sertifikat (144 ədəd mənşə, 217 ədəd fitosanitar, 13 ədəd CİTES) təqdim edilib.

2024-cü ilin iyun ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **35,2 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq ulyuku, pambıq çiyidi cecəsi, kərə yağı, qənnadı məmulatları, narşərab, çaxır, nar, albalı, qarışıq şirələr, narşərab, limonad, dondurma, dondurma vaflisi, at, əridilmiş heyvan piyi, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü, tibbi zəli, izolyasiya məhsulları, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli

metallar, polad boru, pambıq mahlıcı, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Seneqal, Gürcüstan, Türkiyə, Rusiya, ABŞ, Belarus, İsrail, Türkmənistan, İraq, Əfqanıstan, Livan, Qazaxıstan, Özbəkistan üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN AVQUST AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI avqust



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)

2024 İXRAC İCMALI avqust

**58%**
Fitosanitar sertifikatı

**38,5%**
Mənşə sertifikatı

**3,3%**
CİTES sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat